

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 83 (23.495)

3 iyun 2020-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 2 iyun tarixli Sərəncamı ilə Azərbaycanda mülki aviasiya sahəsində səmərəli fəaliyyətinə görə bir qrup şəxs təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Beynəlxalq Hava Limanının əməkdaşı da vardır.

**Məmmədov Tahir Məmməd oğlu**

"Tərəqqi" medalı ilə təltif edilmişdir.

## Muxtar respublikanın enerji təhlükəsizliyi diqqətdə saxlanılır

*Muxtar respublikada cəmiyyətin normal fəaliyyətinin və davamlı inkişafının təmin olunmasında dayanıqlı və keyfiyyətli enerji təchizatı mühüm rol oynayır. Son illər bu sahənin inkişafı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilmiş, yeni güclər yaradılmış, infrastruktur yenilənmişdir. Yeni yaradılmış güclər daxili istehlakı tam ödəməklə yanaşı, muxtar respublikanı enerji idxalçısından enerji ixracatçısına çevirmişdir.*



Muxtar respublikanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm mərhələ kimi 2006-cı ildə Naxçıvan Qaz-Turbin Elektrik Stansiyasında dizel yanacağı ilə işləyən enerji turbinləri təbii qazla işləmə rejiminə keçirilmiş, ümumi gücü 87 meqavat olan Naxçıvan Modul Elektrik Stansiyası tikilib istismara verilmişdir.

Muxtar respublikanın yerləşdiyi ərazi, alternativ və bərpa olunan enerji potensialının mövcudluğu burada yeni enerji növlərinin istehsalına şərait yaratmış, ötən dövr ərzində Heydər Əliyev Su Anbarı üzərində 4,5 meqavat gücündə su elektrik stansiyası, Ordubad rayonunda Gilançay üzərində 22 meqavat gücündə Biləv Su Elektrik Stansiyası, Şərur rayonunda 20,5 meqavat gücündə "Arpaçay-1" və 1,4 meqavat gücündə "Arpaçay-2" Su Elektrik stansiyaları, Babək rayonunda 22 meqavat gücündə və Kəngərli rayonunda 2 meqavat gücündə Günəş elektrik stansiyaları istifadəyə verilmişdir.

Həyata keçirilən tədbirlərin nəticəsidir ki, əvvəlki illərdə muxtar respublikada 1 elektrik enerjisi istehsal edən stansiya fəaliyyət göstərirdisə, 2019-cu ilin sonuna bu göstərici 9-a çatdırılmışdır. Ümumi stansiyaların 7-də alternativ və bərpa olunan enerji istehsal edilir ki, bu da iqtisadi cəhətdən daha rentabelli olmaqla yanaşı, ətraf mühitin çirklənməsinin qarşısının alınmasında da mühüm rol oynayır.

İstehlakçıların elektrik enerjisi ilə təchizatını daha da yaxşılaşdırmaq istiqamətində təkcə 2014-2019-cu illər ərzində muxtar respublikada 362,4 kilometr yeni elektrik xətləri çəkilmiş, 427,4 kilometr elektrik xətləri əsaslı təmir olunmuşdur. Bu dövr ərzində 196 yeni transformator quraşdırılmış, 701 transformator isə əsaslı təmir olunmuşdur.

2019-cu ildə muxtar respublikada 418 milyon 385 min 251 kilovat-saat elektrik enerjisi istehsal olunmuşdur ki, bunun da 186 milyon 695 min 982 kilovat-saatı və ya 44,6 faizi istilik elektrik stansiyalarında, 194 milyon 216 min 469 kilovat-saatı və ya 46,4 faizi su elektrik stansiyalarında, 37 milyon 472 min 800 kilovat-saatı və ya 9 faizi isə Günəş elektrik stansiyalarında istehsal edilmişdir. Alternativ və bərpa olunan elektrik enerjisi istehsalı ümumi istehsalın 55,4 faizini təşkil etmişdir.

2019-cu ildə ölkə üzrə Günəş elektrik stansiyalarında istehsal olunan elektrik enerjisinin 88,7 faizi muxtar respublikanın payına düşüb.

Muxtar respublikada enerji təhlükəsizliyi ilə bağlı həyata keçirilən tədbirləri yüksək qiymətləndirən ölkə başçısı cənab İlham Əliyev demişdir: ***"Elektrik enerjisi ilə problem yoxdur. Hesab edirəm, gün gələcək ki, Naxçıvan bütün enerji tələbatını bərpa olunan enerji növləri hesabına təmin edəcək".***

Muxtar respublikada alternativ enerji istehsalı sahələrinin yaradılması istiqamətində həyata keçirilən tədbirlərin davamı olaraq 2020-ci ilin yanvar-may aylarında Kəngərli rayonunda 3 meqavat gücündə Günəş Elektrik Stansiyasının tikintisi başa çatdırılmış, Ordubad rayonunda 36 meqavat gücündə Ordubad Su Elektrik Stansiyasının tikintisi davam etdirilmişdir.





Cari ilin yanvar-may aylarında istehlakçıların keyfiyyətli elektrik enerjisi ilə təmin olunması və infrastrukturun yenilənməsi istiqamətində Şərur rayonunda 35/10 kilovoltluq "Çomaxtur" yarımstansiyası istifadəyə verilmiş, muxtar respublikada 29,5 kilometr uzunluğunda 10 və 0,4 kilovoltluq, 3,6 kilometr uzunluğunda 35 kilovoltluq yeni elektrik xətləri çəkilmiş, 16 müxtəlifgərginlikli transformator quraşdırılmışdır.

Naxçıvan şəhərində transformator binasının və Şərur şəhərində yüksəkgərginlikli elektrik xətti üçün tunelin tikintisi, Naxçıvan və Şərur şəhərlərində, həmçinin Babək qəsəbəsində smartkarttipli elektrik sayğaclarının quraşdırılması işləri hazırda davam etdirilir.

Muxtar respublikada enerji sahəsində görülən işlərin əhəmiyyətini qeyd edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: ***"Bu gün dayanıqlı elektrik enerjisi təminatı yaratmadan iqtisadiyyatın inkişafını təmin etmək mümkün deyil. Ona görə də muxtar respublikada elektrik enerjisi təminatı sahəsində mühüm işlər görülür, yeni günəş və su elektrik stansiyaları tikilir, yarımstansiyalar qurulur, elektrik xətləri çəkilir. Elektrik enerjisi istehsalı ilə yanaşı, onun əhaliyə dayanıqlı çatdırılması da əsas şərtdir".***

**Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti**

## Sahibkarlığın inkişafına hərtərəfli qayğı göstərilir

*İqtisadi sahədə həyata keçirilən tədbirlər bazar iqtisadiyyatı mexanizmləri əsasında sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə, yerli və xarici investisiyaları, müasir texnologiyaları cəlb etmək və qabaqcıl idarəetmə təcrübəsindən faydalanmaqla rəqabətədavamlı məhsul istehsal edən müəssisələrin, həmçinin yeni iş yerlərinin yaradılmasına yönəldilmişdir.*

Belə ki, cari ilin ötən 5 ayı ərzində iqtisadiyyatın bütün sahələrində dövlət texniki və maliyyə dəstəyi ilə 71 istehsal və xidmət sahəsi istifadəyə verilmiş, 35 istehsal və xidmət sahəsinin yaradılması istiqamətində işlər davam etdirilmişdir.

Sahibkarların hüquqlarının daha etibarlı müdafiəsi məqsədilə 2020-ci ilin ötən dövrü ərzində "Qaynar xətt" vasitəsilə 2403 sahibkarlıq subyekti ilə maarifləndirmə istiqamətində iş aparılmış, onlar müxtəlif tədbirlər haqqında məlumatlandırılmışdır.

Dövlət dəstəyinin gücləndirilməsi, iqtisadi və maliyyə resurslarına çıxış imkanlarının genişlənməsi, kredit resurslarının məhz muxtar respublika iqtisadiyyatı üçün prioritet hesab olunan layihələrin maliyyələşdirilməsinə yönəldilməsi qarşıya qoyulmuş əsas vəzifələrdəndir. Bütün bunlarla yanaşı, sahibkarlıq subyektlərinin istehsal etdikləri məhsulların xarici bazarlara ixracı, muxtar respublikada iqtisadiyyatın müxtəlif sahələrinə investisiyaların cəlb edilməsi, kiçik və ortahəcmli müəssisələrin fəaliyyətlərinin təkmilləşdirilməsi, onların rəqabət qabiliyyətinin artırılması üzrə işlər davam etdirilməkdədir.

Özəl sektora dövlət dəstəyinin gücləndirilməsi iqtisadi və maliyyə resurslarına çıxış imkanlarının genişlənməsi məqsədilə Sahibkarlığın İnkişafı Fondu tərəfindən muxtar respublika üzrə 2000-ci ildən ötən dövr ərzində 1420 layihənin maliyyələşdirilməsinə 160 milyon manata yaxın vəsait ayrılmışdır. Təkcə 2020-ci ilin ötən dövrü ərzində fond tərəfindən sahibkarlara 49 layihənin maliyyələşdirilməsinə, ümumilikdə, 6 milyon 879 min manatdan çox kredit vəsaiti verilmişdir. Bundan sənaye məhsulu yönümlü 4 layihənin maliyyələşdirilməsinə 6 milyon 236 min manat, kənd təsərrüfatı yönümlü 45 layihənin maliyyələşdirilməsinə isə 643 min manatdan çox dövlət maliyyə dəstəyi göstərilmiş, yaradılan müxtəlif istehsal sahələri üzrə 166 yeni iş yeri açılmışdır.

İqtisadiyyatın mühüm istiqamətlərindən olan ailə təsərrüfatlarının formalaşaraq kiçik sahibkarlıq subyektlərinə çevrilməsi, eləcə də bu fəaliyyət sahəsinin stimullaşdırılması ilə bağlı həyata keçirilən sistemli tədbirlər muxtar respublikada ailə təsərrüfatlarının sayının gündən-günə artmasına şərait yaratmışdır. Belə təsərrüfatların fəaliyyətinin stimullaşdırılması məqsədilə 2020-ci ilin ötən dövründə Sahibkarlığın İnkişafı Fondu tərəfindən 26 ailə təsərrüfatına 226 min 600 manat həcmində dövlət maliyyə dəstəyi göstərilmişdir.

Həyata keçirilən genişmiqyaslı tədbirlər nəticəsində əldə olunmuş nailiyyətlər muxtar respublikada sahibkarlıq üçün əlverişli şəraitin yarandığını, iqtisadiyyatın ayrı-ayrı sektorlarında çalışanlara dövlət tərəfindən hərtərəfli qayğının göstərildiyini əyani nümayiş etdirir. Bu səbəbdən də sahibkarlıq mühiti getdikcə daha sürətlə inkişaf edir, ümumi iqtisadiyyatda öz çəkisini artırır.

**Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti**

***Bu gün muxtar respublikamızı bütünlüklə əhatə edən, intensiv şəkildə həyata keçirilən quruculuq tədbirləri hər bir naxçıvanlını qəlbən sevindirir. Belə quruculuq ünvanlarından biri də Culfa rayonudur. Görülən işlərin nəticəsidir ki, rayonun kənd yaşayış məntəqələri ilə yanaşı, Culfa şəhəri də xeyli gözəlləşib, mühüm infrastruktur layihələri həyata keçirilib. Aparılan kompleks quruculuq tədbirləri sırasında inzibati binaların tikintisi və əsaslı şəkildə təmirini xüsusilə qeyd etmək yerinə düşər.***

## Kompleks tikinti-quruculuq işləri davam etdirilir

Rayonun yeni quruculuq ünvanlarından biri Heydər Əliyev prospektində inşa edilən Təhsil Şöbəsinin inzibati binasıdır. Tikintisinə ötən il noyabr ayının ikinci yarısından başlanan inzibati bina 2 mərtəbədən və 3 korpusdan ibarət olacaq.



Birinci mərtəbədə rayon Təhsil Şöbəsinin tabeliyində olan məktəbdənkənar müəssisələr, texniki yaradıcılıq və uşaq yaradıcılıq mərkəzləri, ikinci mərtəbədə isə Təhsil Şöbəsinin iş otaqları yerləşəcək.

Hazırda binanın dam örtüyü vurulub. Elektrik, istilik sistemi və suvaq işləri yekunlaşıb. Binada son tamamlama işləri görülür, həyətyanı sahədə abadlıq işləri aparılır. Bundan əlavə, binanın həyətində də digər yardımçı binalar tikilib. Həmçinin burada işıqlandırma sistemi, yaşıllıq zolağı və gülkarlıq yaradılır. Tikintidə, əsasən, yerli materiallardan istifadə olunur. Obyekt həmin materiallar ilə vaxtlı-vaxtında təmin olunur. İnşaatçılar obyekti nəzərdə tutulmuş vaxtda başa çatdırmaq üçün səylə çalışırlar.



Rayonda digər quruculuq ünvanlarından biri də "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin Culfa Yük və Sərnişindaşımaları İdarəsidir. Rayonun dəmiryol təşkilatlarını birləşdirən bu idarədə vaqon təmiri sexi və həmin sexin inzibati binası "Naxçıvan Dəmir Yolları" MMC-nin Texniki İnzibati Binaların Təmir Tikinti İdarəsi tərəfindən əsaslı şəkildə yenidən qurulur. İdarənin iş icraçısı Aydın Mərdanovdan aldığımız məlumata görə, lokomotiv deposu üçün hər birinin uzunluğu 66 metr olan iki dəmir yolu xətti yenilənir. Burada təkər cütü sexi və mexanik üçün otaq nəzərdə tutulub. Hazırda burada konstruksiyaların rənglədirilməsi və döşəməyə betonun verilməsi işi həyata keçirilir. Təmir sexində vaqon təmiri üçün qaldırıcı kranlar quraşdırılıb, elektrik xətləri yenilənib, sexin işıqlandırılması işləri yekunlaşdırılıb. Tezliklə inşası başa çatacaq təmir sexində yük və sərnişin vaqonları təmir olunaraq istismara buraxılacaq.

Onu da qeyd edək ki, sexdə gündəlik olaraq 4 sərnişin və ya 6 yük vaqonu təmir edilə bilər.

Eyni zamanda burada iki mərtəbədən ibarət olacaq vaqon təmiri sexinin inzibati binası da inşa olunur. Binada sahə rəisinin otağı, mexaniklər, mühafizəçi, çilingərlər, digər işçilər üçün otaqlar, istirahət otaqları yerləşəcək. Hazırda obyektin daxilində işlər davam etdirilir. Binanın fasadında üzləmə işləri aparılır. Tikintidə, əsasən, yerli tikinti materiallarından istifadə edilir.

**Alim AĞAYEV**




*Dövlət proqramı icra olunur*

## Muxtar respublikada baytarlıq xidmətinin təşkili diqqət mərkəzindədir

*Baytarlıq xidmətinin təşkili qida təhlükəsizliyinin təmin olunmasında əsas rol oynayan faktorlardan biridir. Bununla yanaşı, bu sahənin inkişaf etdirilməsi yoluxucu və parazitar xəstəliklərə qarşı mübarizədə həyati əhəmiyyət kəsb etməklə son dövrlərdə daha aktual xarakter almışdır. Muxtar respublikamızda baytarlıq xidmətinin müasir tələblərə uyğun qurulması, maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı ardıcıl tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir:* ***“Muxtar respublikada baytarlığın inkişafı üçün lazımi tədbirlər görülür. Naxçıvan Dövlət Universitetində və Naxçıvan Dövlət Texniki Kollecində müvafiq ixtisaslar fəaliyyət göstərir. Həmçinin baytarlıq idarələri və məntəqələri üçün lazımi iş şəraiti yaradılır, süni mayalanmanın tətbiqi ilə bağlı tədbirlər görülür. Epizootik tədbirlərin görülməsi üçün dərmanlarla təminat vaxtında həyata keçirilir. Görülən işlərin nəticəsidir ki, muxtar respublikada bu sahədə sabitlik vardır”.***

Muxtar respublikada heyvandarlıq sahəsində əldə olunan nailiyyətlər əhalinin ət və ət məhsulları, süd və süd məhsullarına olan tələbatının ödənməsində mühüm rol oynayır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 17 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş “2020-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında baytarlıq təbabətinin inkişafı üzrə Dövlət Proqramı” bu tədbirlərin əlaqələndirilməsi baxımından xüsusi əhəmiyyətə malikdir. Proqramda 25 bənddən ibarət tapşırıqlar nəzərdə tutulmuş, ötən dövrdə bu tapşırıqların icrasına başlanılmışdır.

Baytarlıq təbabəti insanları ərzaq məhsulları ilə təmin edən ev heyvanları arasında xəstəliklərin qarşısının alınması, insan sağlamlığı üçün təhlükəsiz heyvandarlıq məhsullarının istehsalı, habelə əhalinin müəyyən xəstəliklərdən mühafizəsi sahəsində elmi, praktik və təşkilati tədbirlər sistemidir. Bu ilin ötən dövründə dövlət proqramında nəzərdə tutulan tapşırıqların icrası təmin edilmiş, tələf olmuş heyvanların ətraf mühitə atılmasının qarşısının alınması üçün Şahbuz, Ordubad, Kəngərli, Babək və Culfa rayonlarında xüsusi yerlər ayrılaraq cəsədlərin basdırılması üçün quyular qazılmışdır.

Proqramın icrasına uyğun olaraq heyvan mənşəli xəstəliklərin qarşısının alınması ilə bağlı profilaktik tədbirlər də davam etdirilmiş, epizootik tədbirlər planına uyğun olaraq qarayara xəstəliyinə qarşı 94 min 631 baş iribuynuzlu, 4 min 797 baş təkdırnaqlı, 337 min 519 baş xırdabuynuzluda, eyni zamanda nodulyar dermatit xəstəliyinə qarşı 80 min 650 baş iribuynuzluda, dabaq xəstəliyinə qarşı 99 min 834 baş iribuynuzluda, emkar xəstəliyinə qarşı 36 min 542 baş iribuynuzluda, bradzot xəstəliyinə qarşı 32 min 95 baş xırdabuynuzluda, pasterelyoz xəstəliyinə qarşı 87 min 879 baş quşda, eləcə də quduzluq xəstəliyinə qarşı peyvəndləmə işləri aparılmışdır.

Bruselyoz xəstəliyini müayinə məqsədilə 14 min 593 baş iribuynuzlu və xırdabuynuzlu heyvanlardan qan nümunələri götürülərək baytarlıq laboratoriyalarında seroloji müayinədən keçirilmiş və xəstəlik aşkarlanmamışdır. Eyni zamanda vərəm xəstəliyinə görə 3 min 954 baş iribuynuzlu, manqo xəstəliyinə görə isə 1731 baş təkdırnaqlı heyvanda müayinələr aparılmışdır.







Ekoloji təmizliyin təmin edilməsi yoluxucu və parazitar xəstəliklərin yayılmasının qarşısını alır. Dövlət proqramının icrasına uyğun olaraq ötən dövrdə heyvandarlıq binalarının yerləşdiyi ərazilərdə 1786 obyekt üzrə 520 min 143 kvadratmetr sahədə dezinfeksiya tədbirləri həyata keçirilmişdir.

Heyvandarlığın daha sürətlə inkişaf etdirilməsi, yeni məhsuldar cinslərin yetişdirilməsi, yoluxucu xəstəliklərin yayılmasının qarşısının alınması və qısırlığın aradan qaldırılmasında süni mayalanmanın çox böyük təcrübi əhəmiyyəti vardır. Süni mayalanmanın heyvandarlıqda müvəffəqiyyətlə həyata keçirilməsi bir tərəfdən iqtisadi cəhətdən sərfəlidir, digər tərəfdən isə heyvanlar arasında xəstəliklərin qarşısını alır. Bu istiqamətdə dövlət proqramında nəzərdə tutulan süni mayalanma tədbirlərinin əhatə dairəsinin genişləndirilməsi diqqət mərkəzindədir. Muxtar respublikada fəaliyyət göstərən 23 süni mayalanma məntəqəsinin texnikləri tərəfindən 3 min 307 baş inək və düyədə süni mayalanma işləri aparılmışdır.

Aqrar sektorda məhsuldarlığın yüksəldilməsində heyvandarlıq təsərrüfatlarının yaradılması və genişləndirilməsi əsaslı rol oynayır. Bu sahədə əvvəlcədən başlanılan işlər davam etdirilir. Ümumilikdə, yanvar-mart aylarında dövlət maliyyə dəstəyi hesabına 5 heyvandarlıq təsərrüfatının genişləndirilməsi, 16 heyvandarlıq və 5 arıçılıq təsərrüfatının yaradılması başa çatdırılmışdır. 50 baş iribuynuzlu heyvandarlıq təsərrüfatının yaradılması üzrə isə layihə hazırlanmışdır.

Ərzaq məhsullarının saxlanılmasının düzgün təşkilində, miqdar və keyfiyyətcə yaxşı qalmasında tara və qablaşdırıcı materialların rolu böyükdür. Dövlət proqramında heyvandarlıq məhsullarının emalı və qablaşdırılmasını həyata keçirən müəssisələrin reyestrinin aparılması ilə bağlı tapşırıq nəzərdə tutulmuşdur. Ötən dövrdə rəsmi qeydiyyatda olan 10 süd məhsulu, 4 dondurma, 3 ət məhsulu, 2 hisə verilmiş bildirçin əti və toyuq əti hissələri, 2 hisə verilmiş balıq məhsulları, emal edilmiş gön-dəri, 2 arıçılıq məhsulları istehsalı müəssisələrinin, 16 quşçuluq və 18 balıqçılıq təsərrüfatlarının reyestri aparılmışdır.

Sığorta iqtisadiyyatın digər sahələrində olduğu kimi, kənd təsərrüfatında da mühüm rol oynayır. Əmlakı və məhsulu gözlənilməz hadisələrə qarşı sığorta etdirmək fermer və torpaq mülkiyyətçiləri üçün böyük əhəmiyyət daşıyır. Belə ki, kənd təsərrüfatında tətbiq olunan sığorta bitkiçilik və heyvandarlıqda müxtəlif riskli hadisələr nəticəsində dəymiş zərərlərin ödənilməsində çox faydalıdır. Proqramın icrasına uyğun olaraq heyvandarlıqda sığorta işinin təşkili ilə bağlı sahibkarların maarifləndirilməsinə başlanılmış, Culfa, Şərur və Babək rayonlarında müşavirələr keçirilmiş, “Heyvandarlıqda aqrar sığortanın əhəmiyyəti” adlı maarifləndirici bukletlər sahibkarlara paylanılmışdır.

*Dövlət proqramında nəzərdə tutulan tədbirlərin vaxtında icrası muxtar respublikada baytarlıq təbabətinin inkişafında mühüm mərhələ təşkil edəcəkdir.*

**“Şərq qapısı”**

## Torpağa bağlananda

### Kartofçu Ədalət əmi kimi özünü onsuz təsəvvür edə bilmirsən

*Ədalət Həsənov Şahbuz rayonunun Ağbulaq kəndindəndir, kənd baytarlıq məntəqəsinin müdiri işləyir. Fəal ictimaiyyətçidir. Həm də rayonun bacarıqlı kartof istehsalçılarından biridir. Ədalət əmi ilə tanışlığım da elə ən yaxşı kartofçu ilə maraqlanıb onun zəhmətini işıqlandırmaq, tövsiyə və məsləhətlərini kənd təsərrüfatının bu sahəsi ilə məşğul olan insanlara – oxucularımıza çatdırmaq istəyim nəticəsində oldu...*

Ölkəmizdə müstəqillik illərində uğurla aparılan torpaq islahatı illərlə həyatyanı sahəsində əkinçiliklə məşğul olan bu zəhmət adamının da imkanlarını xeyli genişləndirdi. O, pay torpağı aldı və elə həmin vaxtdan – 1994-1995-ci illərdən kartofçuluqla məşğul olmağa başladı. Ədalət əmi bu barədə fikirlərini bölüşdü:

– Torpağa bağlandınsa, bu, zamanla bir vərdişə çevriləcək. Bir daha ondan ayrıla bilməyəcəksən. O səni özünə çəkəcək, sən özünü onsuz təsəvvür etməyəcəksən. Üstəgəl, ailənin dolanışığının da birbaşa torpaqla, zəhmətlə, əməklə bağlı olduğunu dərk edəndə, torpaq sənin arxan, dayağın olur. Üz tutduğun, əl açdığın, kömək istədiyin, ümid etdiyin ən yaxşı “dostuna” çevrilir.

Onun söylədiyi bu sözlərin həssas qəlbinin, zəhmətə qatlaşan varlığının, ailəyə olan bağlılıq hisslərinin ifadəsi olmasına, səmimiliyinə əmin oldum. Bu kəlmələri dilə gətirən adamın təkcə yaxşı zəhmət adamı deyil, haradasa digər müsbət xüsusiyyətləri olduğuna da məndə şübhə yeri qalmadı. Elə bunun üçün də məni düşündürən sualları ona verdim ki, bu zəhmətkeş insanı daha yaxından tanıyım.

O da məlum oldu ki, sən demə, Ədalət əmini iş vaxtından sonra da evində tapmaq müşkül məsələ imiş. Baytar həkim olduğu üçün böyük bir kəndin mal-heyvanında, ev quşlarında hər hansı bir problem yarandıqda tez-tez onları müayinə etmək üçün çağırılır. O isə əlindəki işini yarımçıq qoyub dərhal həmin çağırışlara yollanır. Əlindən gələni etməklə qonşusunun, kəndlisinin min bir əziyyətlə saxladığı mal-heyvana, toyuq-cücəyə bir xətərin toxunmasının qarşısını almağa çalışan insandır. Buna görə də kənddə hər kəs onun hörmətini saxlayır.

Ədalət əmi həm də qonaqpərvərliyi ilə tanınır. Qohum-əqrəba, bacı-qardaşları onun evinə illərdir ki, hörmətlə gəlib, izzətlə gedirlər. Onun yetişdirdiyi tonlarla kartof, tərəvəzdən, həyətindəki cəviz ağaclarından yığdığı meyvədən, heyvandarlıq məhsullarından hər il bacı-qardaşa, yaxın qohumlara da pay tutulur. Bunları öyrəndikdən sonra bir zəhmət adamının simasında həm də həssaslıq, qayğıkeşlik kimi gözəl insani keyfiyyətləri gördüm.



Kartofçuluqla bağlı söhbət zamanı təsərrüfatçı bu sahənin inkişafı üçün Ağbulaqda münbit şəraitin olduğunu, yaxşı məhsul əldə etmək üçün bu sahənin “dilini” bilməyin vacibliyini vurğuladı. Dövlətin kənd təsərrüfatını inkişaf etdirmək istəyən adamlara göstərdiyi qayğıdan ağızdolusu danışan Ədalət əmi ötən illərlə bu günü müqayisə edərək əkinçilərə verilən kreditləri, yardımları yüksək dəyərləndirdiyini bildirdi. Özünün də ötən ilin iyul ayında kredit götürdüyünü, elə fərdi təsərrüfatını da kredit hesabına genişləndirdiyini qeyd etdi.

O, ötən il 200 kiloqram kartof əkib, 1,5 tona yaxın məhsul əldə edib. Cari ilin aprel ayında növbəti əkini həyata keçirib. Kartof sərini, rütubəti sevdiyindən havaların yağıntılı keçməsi, suvarma suyu sarıdan heç bir probleminin olmaması təsərrüfat adamını sevindirib. Deyir ki, sahəyə hər il olduğu kimi aqrotexniki qulluq göstərir, suvarmanı vaxtlı-vaxtında aparır və bu mövsümdə də yaxşı məhsul əldə edəcəyinə əmindir.

Ədalət əmi kartofun becərilməsi haqqında da danışaraq bildirir ki, hər il yığımdan sonra sahə şumlanır, torpağa təbii gübrə verilir. Növbəti əkində cərgələri əllə çəkmişəm. Çünki maşınla çəkərkən cərgələr uzun olur, bu başdan o başa su çatmır. Ona görə də bunu əllə etmək daha sərfəlidir. Ancaq əkini maşın vasitəsilə də edirəm. Sonrakı becərmə işlərini isə mərhələ-mərhələ həyata keçirirəm. Bu proses beş ay ərzində başa çatır və sonra məhsul yığımı başlayır.

Təsərrüfat adamı sahəsindən ötən il topladığı məhsulun satışı zamanı da yaxşı gəlir əldə edib. Bu barədə maraqlananda dedi ki, məhsulu həm bazara çıxarır, həm də artıq neçə illərdir, daimi alıcıları var ki, elə qapısından gəlib aparırlar. Ondan ailə üçün nə qədər kartof saxladığını soruşdum. 200-250 kiloqramın onları bu kartof yığımından növbəti yığımadək gördüyünü söylədi.

Ədalət əmi həyətində 25 iribuynuzlu, 100 xırdabuynuzlu heyvan, 50-dən artıq quş saxlayır. Kartofla yanaşı, soğan, kələm, pomidor, xiyar və digər tərəvəzlər də əkib-becərir, cəviz, badam, alma ağaclarına qulluq göstərir, tədarük etdiyi məhsullardan bazara çıxarır.

Bir zəhmət adamı ilə söhbətimin nəticəsi bu oldu ki, mən onun simasında təkcə axtardığım ən yaxşı kartofçu müsahibimi yox, həm də qədim qohumluq bağlarını yaşadan, ailə dəyərlərini qoruyan, kəndlilər arasında hörmət sahibi olan bir insanı gördüm. Ona son sualım isə belə oldu: bu qədər qonaq-qaralı ev, bu qədər çox iş. Üzərinizə çox iş götürdüyünüz üçün yorulub usanmırsınız ki? Yəqin, bu qayğıkeşliyinizə, zəhmətkeşliyinizə görə qohumlarınızın və həmkəndlilərinizin sizə hörməti böyükdür.

O belə cavab verdi: – Bəli, düz deyirsiniz, çoxları bu qədər zəhmətə dözməzdi. Amma bütün bunlar mənim üçün çox xoşdur. Qaldı qohumlarımın və kəndlilərimin mənə olan hörmətinə, həmişə çalışmışam ki, elə yerdə oturum ki, gəlib deməsinlər ki, dur, bura sənin yerin deyil.

*Bəli, torpaq belədir. O, insanı tərbiyə edir. O, insanı zəhmətkeşə çevirir. Təbii ki, gününü zəhmətlə, əməklə keçirən insan nankorluqla, pis əməllərlə məşğul ola bilməz. O, torpağı sevib yurduna daha ürəkdən bağlandıqca ata-anasını, bacı-qardaşını, qohum-əqrəbasını, ümumilikdə, Vətənini, adət-ənənələrimizi, milli dəyərlərimizi də sevib, onu yaşadacaq. Ağbulaqlı Ədalət əmi kimi...*

**Nail ƏSGƏROV**

*2012-ci il oktyabr ayının 19-da keçirilən Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin konfransında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov çıxışında Yazıçılar Birliyinə bir sıra problemlərin həlli ilə əlaqədar tapşırıqlar vermişdir. Həmin tapşırıqlardan biri də bədii tərcümə sənətinin inkişafı ilə bağlı olmuşdur. Ali Məclisin Sədri demişdir:* ***"Ciddi problemlərdən biri də bədii tərcümə ilə bağlıdır. Bu olmadan bədii əsərləri tərcümə edib yaymaq mümkün deyil. Muxtar respublikamızda elmi və publisistik əsərlərin, tarixi mövzuda yazılmış kitabların tərcüməsi sahəsində müəyyən təcrübə vardır. Lakin istər klassik, istərsə də müasir bədii əsərlərin tərcüməsi sahəsində boşluq qalmaqdadır. Muxtar respublikada xarici dillərdən birbaşa tərcümə ilə məşğul olan yazıçı və şairlərin olmasını əsas götürərək Yazıçılar Birliyi nəzdində bədii tərcümə mərkəzi yaratmaq mümkündür".***

# Naxçıvanda bədii tərcümə sənəti yeni inkişaf mərhələsində




Konfransdan sonra Yazıçılar Birliyinin nəzdində bədii tərcümə mərkəzi yaradılmışdır. Qeyd edək ki, bədii tərcümə sahəsində əvvəllər qazanılmış təcrübə mərkəzin öz işini düzgün qurmasını sürətləndirib. Ümumilikdə, şair və yazıçılarımızdan Həmid Arzulunun, Şirməmməd Qüdrətoğlunun alman və ingilis dillərindən etdiyi tərcümələr kitab şəklində oxuculara çatdırılıb. Mərhum şairimiz Vaqif Məmmədovun, istedadlı şair Elxan Yurdoğlunun türk poeziyasından tərcümələri ayrıca kitab şəklində oxuculara təqdim edilib. Son illərdə isə AMEA-nın müxbir üzvü Əbülfəz Amanoğlunun dünya ədəbiyyatının korifeylərindən sayılan Cəlaləddin Ruminin "Məsnəvi"sini ilk dəfə olaraq dilimizə çevirməsi müsbət ədəbi hadisə kimi dəyərləndirilir. Qeyd edək ki, üç kitabdan ibarət olan "Məsnəvi" Ali Məclis Sədrinin xüsusi qayğısı ilə çap olunaraq oxucuların ixtiyarına verilib.

Bir məsələni də diqqətə çatdırmaq lazımdır ki, muxtar respublikamızda yaşayıb-yaradan şair və yazıçılarımız əsərlərin böyük bir qismini orijinaldan tərcümə ediblər. Əvvəllər, xüsusilə keçmiş Sovetlər Birliyi dövründə dilimizə olan tərcümələr, əsasən, rus dili vasitəsilə aparılırdı. Ancaq respublikamız müstəqillik əldə etdikdən sonra orijinaldan tərcüməyə xüsusi əhəmiyyət verilir, tərcümə işləri bu istiqamətdə aparılır.

Qeyd edək ki, tərcümə mərkəzi tərəfindən üç kitabdan ibarət olan "Dünyaya pəncərə" adlı almanax yüksək səviyyədə işlənərək oxucuların ixtiyarına verilib. Bu kitablara daxil olan əsərlərin böyük bir qismi orijinaldan edilən tərcümələrdir. Şeirlər toplanan hissəyə türk, rus, ingilis, fransız dillərindən olan tərcümələr daxildir. Kitabın ingilis dilindən tərcümələr yer alan hissəsi, demək olar ki, tamamilə filologiya üzrə fəlsəfə doktoru Şirməmməd Qüdrətoğluya məxsusdur. Tərcüməçinin burada Vilyam Şekspir, Tomas Mur, Corc Qordon Bayron, Lənqston Hyuz, Stivenson, Persi Bişi Şelli, Robert Berns, Koleric, Çarlz Makkey, Lonqfellou, Tomas Hud kimi məşhur ədiblərdən etdiyi tərcümələr özünə yer alıb.

Geniş elmi-ədəbi ictimaiyyət arasında Şamil Zaman bir ədəbiyyatşünas, istedadlı şair və nasir, eyni zamanda bacarıqlı tərcüməçi kimi tanınır. Onun Azərbaycan dilinə tərcümə etdiyi görkəmli fransız yazıçısı Prosper Merimenin "Məhəbbət ilahəsi", Qəzənfər Paşayevin tərtib etdiyi "Nostradamusun möcüzəli aləmi" kitabları Şamil Zamanın tərcüməçilik sahəsindəki uğurlu addımlarındandır. O, Viktor Hüqo, Onore de Balzak, Aleksandr Dümanın əsərlərindən Azərbaycan dilinə etdiyi tərcümələrlə istedadlı və zəhmətkeş bir tərcüməçi olduğunu təsdiq etdirib. Qədim Naxçıvan diyarında dünyaya göz açan Şamil Zamanı digər tərcüməçilərdən fərqləndirən cəhətlərdən biri onun, həmçinin doğma Azərbaycan ədəbiyyatından nümunələri birbaşa fransız dilinə yüksək bədiiliklə tərcümə etməsidir. Onun Məmməd Arazın "Dünya sənin, dünya mənim", Elmira Qasımovanın "Xatirə", Vaqif Məmmədovun "Zirvədən baxanda" kitablarını fransızcaya tərcüməsi ölkəmizdə və Fransada rəğbətlə qarşılanıb. Görkəmli akademik İsa Həbibbəylinin ön sözü ilə işıq üzü görən, Şamil Zamanın tərcümələrinin yer aldığı "Naxçıvanın şeir çələngi" antologiyasında Azərbaycan ədəbiyyatının böyük bir qolunu təşkil edən Naxçıvanda yaşayıb-yaradan şairlərin şeirləri təqdim olunub. Bir faktı da nəzərə çatdırmaq lazımdır ki, Şamil Zamanın tərcüməsində fransız ədəbiyyatının görkəmli nümayəndəsi Qustav Floberin "Salambo" romanı tərcümə mərkəzi tərəfindən 2020-ci ildə nəşr olunub.

Qeyd etmək lazımdır ki, ədəbiyyata əvvəlcə şeirlə gələn, daha sonra həm nəsr, həm də alman dilindən bədii tərcümə sahəsində səmərəli fəaliyyət göstərən, geniş oxucu kütləsinin rəğbətini qazanmış filologiya elmləri doktoru Həmid Arzulunun Efraim Lessinqdən "Əsgər səadəti", Bertold Brextdən "Üçüncü imperiya", "Cuhud arvad", "Ədalət məhkəməsi" kimi dram əsərlərinin sanballı tərcüməsi mərkəz tərəfindən hazırlanan "Dünyaya pəncərə" adlı kitabda özünə yer alıb.

Naxçıvanda bədii tərcümə ilə məşğul olan tərcüməçilərdən biri də Şirməmməd Qüdrətoğludur. Qeyd edək ki, görkəmli Amerika yazıçısı, Nobel mükafatı laureatı Ernest Heminqueyin Ali Məclisin Sədri cənab Vasif Talıbovun Sərəncamı ilə "Oxunması zəruri olan kitablar Siyahısı"na daxil edilən "Qoca və dəniz" əsəri, həmçinin "Əcəl zəngi", "Əlvida silah" kimi romanları Azərbaycan oxucularına yaxşı tanışdır. Şirməmməd Qüdrətoğlunun tərcüməsində məşhur yazıçı E.Heminqueyin hekayələri "Dünyaya pəncərə" kitabında oxucuların ixtiyarına verilib və rəğbətlə qarşılanıb. Şirməmməd Qüdrətoğlu, eyni zamanda qədim ingilis ədəbiyyatının ən qədim və həcm etibarilə ən böyük nümunəsi olan "Beovulf" eposundan da tərcümələr edib və bu tərcümə də digər nümunələrlə yanaşı, tərcüməçinin "Ürəkdən ürəyə" adı ilə nəşr olunan ingilisdilli poeziya nümunələrinin orijinaldan tərcüməsi toplusunda maraqla oxunan əsərlər sırasındadır.

Qeyd edək ki, oxucular şeirlərdən ibarət "Dünyaya pəncərə" kitabında Kəmalə Ağayevanın, Hüseyn Razinin, akademik İsa Həbibbəylinin, Muxtar Qasımzadənin, Şamil Zamanın tərcüməsində Aqniya Barto, Aleksandr Blok, Boris Pasternak, Rəsul Həmzətov, Rimma Kazakova, Vladimir Basin, Rəmz Babacan, Əhməd Sövqi, Klod Jozef Ruqe Dö Lil, Pyer Jand dö Beranje, Viktor Hüqo, Şarl Zasayi kimi məşhur şairlərin yaradıcılığı ilə tanış olmaq imkanı qazanıblar.

Bir faktı da diqqətə çatdırmaq lazımdır ki, Əläddin Abbasovun, Hüseyn Əsgərovun, Bağır Qədimovun tərcümələrində də bir sıra xarici ölkə yazıçılarının maraqlı hekayələri işıq üzü görüb. Əläddin Abbasovun Xorxe Luis Borxesdən tərcümə etdiyi "Pedro Salvadores", Bağır Qədimovun Əli Çapar Nailpurdan tərcümə etdiyi "Küləkli gecə" hekayələri ifadə səlisliyi və orijinallığı ilə diqqəti cəlb edir.

Muxtar respublikamızda bədii tərcümə sahəsində öz dəstxəti ilə tanınan müəlliflərdən biri də Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti, publisistik yazıları ilə daim diqqət mərkəzində olan Hüseyn Əsgərovdur. Onun 2017-ci ildə "Əcəmi" nəşriyyatında çap olunan "Gülüşlərin cingildəsin saz kimi" kitabında publisistik yazıları ilə yanaşı, rus və türk, eləcə də rus dili vasitəsilə Avropa və Amerika müəlliflərindən etdiyi tərcümələr bədii tərcümə sahəsinə böyük töhfədir. Hüseyn Əsgərov Əziz Nesinin "Şərməndi nə vaxt doğulub", "Xəzinədəki paslı tənəkə", Anton Çexovun "Hiylə", Yordan Popovun "Duel", İqor Danilov İvuşkinin "Təbiətin möcüzəsi", "Reanimasiya", Mixail Zoşşenkonun "1 aprel zarafatı" və sair əsərləri dilimizə uğurla tərcümə edib. Hüseyn Əsgərov, eyni zamanda rus dili vasitəsilə də tərcümələrə böyük önəm verir. Bunlardan Mark Tvenin "Həzrəti Adəmin gündəliyindən səhifələr", Robert Tompkisin "Həqiqət sorağında", Dariuş Bitnerin "Fərasətli çilingər" kimi hekayələri Azərbaycan oxucularının böyük rəğbətini qazanıb. Qeyd edək ki, Hüseyn Əsgərovun tərcümələri, eyni zamanda "Dünyaya pəncərə" adlı kitabın hekayələr hissəsində də yer alıb. Burada müəllifin Əziz Nesindən "Yağış yağanda", "Karın könlündəki", "Unikal mikrob", Avtandil Adeaşvilidən "Sizin işiniz deyil", Aleksandr Matyuşkindən "Elmə əsasən", Arkadi İnindən "Maraqlı iş", Xosrov Şahanidən "Plastik əməliyyat" kimi tərcümələri təqdirəlayiqdir.

Mərhum şairimiz Vaqif Məmmədov da bədii tərcümə sahəsində uğurlu addımlar atıb. Onun "Dünyaya pəncərə" kitabına daxil olan tərcümələrindən İslam Beytullah Erdidən "Yaşamaq haqqı", İmdad Avşardan "Həmdi kirvə" hekayələri, eləcə də Yəhya Akengin, Ataol Bəhramoğlu, Səbri İbrahim Alagöz, Osman Baymak, Niyazi Hüseyn Bəxtiyar, Ömər Osman Erendoruk, İlhami Emin, Necati Zekeriye və başqa türk müəlliflərindən tərcümə etdiyi şeirlər Vaqif Məmmədovun bədii tərcümə sahəsindəki məhsuldar fəaliyyətinin bəhrəsi kimi diqqəti çəkir.

Qeyd edək ki, bədii tərcümə sahəsində maraqlı məqamlardan biri Naxçıvan ədəbi mühitində yazıb-yaradan müəlliflərin əsərlərinin başqa dillərə tərcümə olunması, bu yolla da bədii ədəbiyyatımızın dünya ictimaiyyətinə çatdırılmasıdır. Bu sahədə Həmid Arzulu, Şamil Zamanın adlarını, xüsusilə qeyd etmək yerinə düşər.

Bu baxımdan şair və yazıçılarımızın qardaş Türkiyədə tanıdılması sahəsində də uğurlu addımlar atılmaqdadır. 2016-cı ildə Ankarada şair Elxan Yurdoğlunun çevirməsi ilə çap olunan "Naxçıvan konulu şeirlər" kitabı da bu səmərəli və mühüm işin bariz nümunəsidir. Burada Naxçıvan torpağının yetirməsi olan şairlərimizdən Asim Yadigar, Elman Həbib, Vaqif Məmmədov, Xanəli Kərimli, Əbülfəz Muxtaroğlu, Validə Hüseynova, İlyas Fərəməzoğlu, Lütfiyyə Əsgərzadə, Zeynəb Naxçıvanlı, Həsənəli Eyvazlı və digər çox sayda müəllifin adını çəkmək olar ki, onların yaradıcılığına məxsus şeirlər kitabda şair Elxan Yurdoğlunun çevirməsi ilə təqdim olunub. Qeyd etmək lazımdır ki, Elxan Yurdoğlu, həmçinin türk şairlərindən də dilimizə çevirmələr edib ki, bu poetik nümunələr "Dünyaya pəncərə" kitabının şeirlər hissəsində dərc olunub. Atilla İlhan, Xeyrəddin İvgin, Hüseyn Nihal Atsız, Yavuz Bülent Bakiler və digər müəlliflərdən etdiyi tərcümələr Elxan Yurdoğlunun təkcə istedadlı şair kimi deyil, eyni zamanda istedadlı bir tərcüməçi kimi də formalaşdığını sübut edir.

*Bütün bunlar, həmçinin Naxçıvan Dövlət Universitetində 30 aprel 2020-ci ildə "Azərbaycan bədii tərcümə sənətinin inkişafında naxçıvanlı ziyalıların rolu" mövzusunda keçirilən onlayn konfrans dövlətimiz tərəfindən ədəbiyyatımıza, eləcə də Naxçıvan ədəbi mühitinə və bədii tərcümə sənətinin inkişafına poetik nümunələr göstərilən yüksək diqqət və qayğıdan xəbər verir.*

**Xumar MƏMMƏDOVA**
***Naxçıvan Dövlət Universitetinin dosenti***

# Onlayn seminar keçirilib



***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamına uyğun olaraq Naxçıvan Müəllimlər İnstitutu və Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin birgə təşkilatçılığı ilə onlayn seminar keçirilib.***

İnstitutun rektoru Azad Novruzov seminarda çıxış edərək muxtar respublikamızda tələbə-gənclərin inkişafı üçün yaradılmış şəraitdən və həyata keçirilən tədbirlərdən danışıb. Rektor seminarın hami təşkilatla birlikdə görülmüş tədbirlərin məntiqi davamı kimi Təsviri incəsənət müəllimliyi ixtisası tələbələri üçün böyük əhəmiyyət daşıdığını və əməkdaşlığın bu ixtisasda oxuyan tələbələr üçün geniş imkanlar açdığını qeyd edib.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyeva Naxçıvan Müəllimlər İnstitutu ilə birgə əməkdaşlıq çərçivəsində Təsviri incəsənət müəllimliyi ixtisasında oxuyan tələbələrin aktiv fəaliyyətindən, istedadlı tələbələrin sərgilərinin təşkilindən, ustad dərslərin keçilməsindən, Gənc Rəssamlar Birliyinin yaradılmasında Naxçıvan Müəllimlər İnstitutunun rəssam tələbələrinin rolundan danışıb. Çıxışda hami təşkilat olaraq tələbələrin peşəkarlıqlarının artırılmasının bundan sonra da diqqətdə saxlanılacağı vurğulanıb.

Seminarda institutun İxtisasartırma və yenidənhazırlanma üzrə prorektoru Çapay Quliyev, Təbiət və incəsənət fakültəsinin dekanı Rövşən Vəliyev və İncəsənət kafedrasının baş müəllimi Nizami Alıyev çıxış edərək təklifləri irəli sürüblər. Onlayn seminar Təsviri incəsənət müəllimliyi ixtisası tələbələri ilə diskussiya şəraitində davam etdirilib.

***Naxçıvan Müəllimlər İnstitutunun mətbuat xidməti***

# Məktəblilərimiz "Üç alov" Beynəlxalq Yaradıcılıq Festivalında uğur qazanıblar



Azərbaycan Respublikası Təhsil Nazirliyinin Uşaq-Gənclər İnkişaf Mərkəzi tərəfindən 7 may-1 iyun tarixlərində "Üç alov" adlı beynəlxalq folklor, klassik və müasir yaradıcılıq festivalı keçirilib.

Mövcud vəziyyətlə bağlı onlayn şəkildə keçirilən festivalın əsas məqsədi Azərbaycan və xarici ölkələrin adət-ənənə və zəngin mədəni irslərinin öyrənilməsi, qorunub saxlanması və inkişafı, ənənəvi folklor, klassik, müasir incəsənətin müxtəlif istiqamətləri üzrə uşaq və gənclərin cəlb edilməsi, xarici ölkələrin kollektivləri ilə yaradıcılıq nailiyyətlərinin mübadiləsi, incəsənət sahəsində ən istedadlı, perspektivli uşaq və gənclərin aşkara çıxarılması, həmçinin onların bədii-estetik səviyyəsinin yüksəldilməsindən ibarətdir.



Müsabiqədə Naxçıvan şəhər 1 nömrəli tam orta məktəbin 7-ci sinif şagirdi Bayram Tahirov Rəqs, Naxçıvan şəhər 8 nömrəli tam orta məktəbin 7-ci sinif şagirdi Mələykə Vəliyeva isə Klassik instrumental ifaçılıq nominasiyası üzrə onlayn şəkildə iştirak ediblər. Hər iki şagirdin çıxışı qiymətləndirilərək həvəsləndirici yerə layiq görülüb. Uğur qazanan şagirdlər Qran Pri diplomu ilə mükafatlandırılacaq.

Qeyd edək ki, hər il keçirilən "Üç alov" Beynəlxalq Yaradıcılıq Festivalında naxçıvanlı məktəblilər ilk dəfə iştirak ediblər.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 19 iyun 2020-ci il tarixdə açıq hərraca çıxarılacaq nəqliyyat vasitələri haqqında məlumat

| S/S | Hərraca çıxarılacaq nəqliyyat vasitələri | Hüquqi ünvan | Satış qiyməti (manat) | Satış qiymətinin 10 faiz həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|
| 1. | 2013-cü il buraxılışlı Kramer Allrad-350 markalı yükləyici | Naxçıvan şəhəri | 17.000 | 1.700 |
| 2. | 2012-ci il buraxılışlı Heli h2000 markalı çəngəlli yükləyici | Naxçıvan şəhəri | 12.325 | 1.233 |
| 3. | 2013-cü il buraxılışlı Sakai markalı vərdənə | Naxçıvan şəhəri | 3.825 | 383 |
| 4. | SM-35 markalı qırıcı | Naxçıvan şəhəri | 1.700 | 170 |
| 5. | SM-40 markalı qırıcı | Naxçıvan şəhəri | 1.700 | 170 |
| 6. | SM-40 markalı qırıcı | Naxçıvan şəhəri | 1.700 | 170 |
| 7. | Cat-432 markalı qırıcı | Naxçıvan şəhəri | 2.125 | 213 |
| 8. | HMK-102S markalı qırıcı | Naxçıvan şəhəri | 1.275 | 128 |
| 9. | Cat-336 D markalı qırıcı | Naxçıvan şəhəri | 1.275 | 128 |
| 10. | 2012-ci il buraxılışlı Ford Cargo 1835 markalı dartıcı | Naxçıvan şəhəri | 38.250 | 3.825 |
| 11. | 2011-ci il buraxılışlı Hitachi ZX 220 markalı kəpçə | Naxçıvan şəhəri | 63.750 | 6.375 |
| 12. | 1989-cu il buraxılışlı Paz 672 M markalı sərnişin avtobusu | Naxçıvan şəhəri | 1.700 | 170 |
| 13. | 2013-cü il buraxılışlı Hyundai HD-72 markalı yük avtomobili | Naxçıvan şəhəri | 8.500 | 850 |
| 14. | 2011-ci il buraxılışlı Caterpillar 262 c markalı təkərli yükləyici | Naxçıvan şəhəri | 19.125 | 1.913 |
| 15. | 2011-ci il buraxılışlı Caterpillar 262 c markalı təkərli yükləyici | Naxçıvan şəhəri | 17.425 | 1.743 |
| 16. | 2011-ci il buraxılışlı Caterpillar 432 e markalı ekskavator | Naxçıvan şəhəri | 32.275 | 3.228 |
| 17. | 2013-cü il buraxılışlı Hidromek 62 SS markalı mini yükləyici | Naxçıvan şəhəri | 19.550 | 1.955 |
| 18. | 2013-cü il buraxılışlı Hidromek 62 SS markalı mini yükləyici | Naxçıvan şəhəri | 25.500 | 2.550 |
| 19. | 2013-cü il buraxılışlı Wacker Neuson 75Z3 markalı tırtıllı ekskavator | Naxçıvan şəhəri | 70.550 | 7.055 |
| 20. | 2013-cü il buraxılışlı Kramer Allrad 1150 markalı yükləyici | Naxçıvan şəhəri | 31.875 | 3.188 |
| 21. | 2013-cü il buraxılışlı Kramer Allrad 2506 markalı yükləyici | Naxçıvan şəhəri | 22.440 | 2.244 |
| 22. | 2013-cü il buraxılışlı Kramer Allrad 650 markalı yükləyici | Naxçıvan şəhəri | 22.950 | 2.295 |
| 23. | 2009-cu il buraxılışlı Opel Combo markalı minik avtomobili | Naxçıvan şəhəri | 7.650 | 765 |
| 24. | 2011-ci il buraxılışlı Hyundai HD-72 markalı yük avtomobili | Naxçıvan şəhəri | 17.000 | 1.700 |
| 25. | 2008-ci il buraxılışlı Foton Forland markalı özüboşaldan | Naxçıvan şəhəri | 11.050 | 1.105 |
| 26. | 1986-cı il buraxılışlı Qaz 531201 markalı Sisterna | Naxçıvan şəhəri | 1.700 | 170 |
| 27. | 2003-cü il buraxılışlı Zil 5301 markalı Sisterna | Naxçıvan şəhəri | 2.975 | 298 |
| 28. | 2006-cı il buraxılışlı Man markalı özüboşaldan | Naxçıvan şəhəri | 12.750 | 1.275 |
| 29. | 1978-ci il buraxılışlı Maz 500 markalı Sisterna | Naxçıvan şəhəri | 2.975 | 298 |
| 30. | 1989-cu il buraxılışlı Arbeitsgem V W markalı yük avtomobili | Naxçıvan şəhəri | 11.050 | 1.105 |
| 31. | 2011-ci il buraxılışlı LP G2 BORO markalı yarımqoşqu | Naxçıvan şəhəri | 2.125 | 213 |
| 32. | 2011-ci il buraxılışlı PDP 35 markalı qoşqu | Naxçıvan şəhəri | 2.550 | 255 |
| 33. | 2011-ci il buraxılışlı Hyundai HD-72 markalı yük avtomobili | Naxçıvan şəhəri | 17.000 | 1.700 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan nəqliyyat vasitələrinin ilkin satış qiymətinin 10 faiz məbləğində beh Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki Auksion Mərkəzinin Xüsusi Vəsaitlər Hesabına 16 iyun 2020-ci il tarixədək ödənilməlidir.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu vaxtdan auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan nəqliyyat vasitələrinin sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunur:

*- Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*

*- hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*

*- fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 19 iyun 2020-ci il tarixdə, saat $11^{00}$-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.***
***Əlaqə telefonu: 545-01-38***

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 19 iyun 2020-ci il tarixdə açıq hərraca çıxarılacaq əmlaklar haqqında məlumat

| s/s | Hərraca çıxarılacaq əmlaklar | Hüquqi ünvanı | Torpağın sahəsi (ha) | Əmlakın satış qiyməti (manat) | Satış qiymətinin 5 faiz həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|---|
| 1. | Metaləritmə zavodu, ofis və istehsal sexi, ofis binası, dülgər və boya sexləri | Azərbaycan küçəsi 20 | 0.7308 | 694.280 | 34.714 |
| 2. | Çoxmərtəbəli bina | Naxçıvan şəhəri, İ.Məmmədov küçəsi $1^A$ | 3644.94 kv.metr | 991.200 | 49.560 |
| 3. | Qeyri-yaşayış binası | Xətai məhəlləsi, döngə 8/80 | 0.03 | 102.000 | 5.100 |
| 4. | Yaşayış sahəsi | Naxçıvan şəhəri, 10-cu küçə 10 | 987 kv.metr | 183.600 | 9.180 |
| 5. | Yaşayış sahəsi | Şahbuz rayon Biçənək kəndi | 6229 kv.metr | 205.800 | 10.290 |
| 6. | Yaşayış sahəsi | Şahbuz şəhəri, Bakı küçəsi, döngə 1, ev 5 | 343.3 kv.metr | 81.600 | 4.080 |
| 7. | Yaşayış sahəsi | Naxçıvan şəhəri, 20 Yanvar küçəsi, döngə 1, ev 2 | 825 kv.metr | 183.600 | 9.180 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakların ilkin satış qiymətinin 5 faiz məbləğində beh Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki Auksion Mərkəzinin Xüsusi Vəsaitlər Hesabına 16 iyun 2020-ci il tarixədək ödənilməlidir.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu vaxtdan auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan əmlakların sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunur:

*- Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*

*- hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*

*- fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 19 iyun 2020-ci il tarixdə, saat $11^{00}$-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.***
***Əlaqə telefonu: 545-01-38***

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 398